Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Robert Koçaryan Antikorrupsiya Komitəsinə aparılıb

indicə




Robert Koçaryan

Avqustun 25-də səhər tezdən Ermənistanın ikinci prezidenti **Robert Koçaryan** Antikorrupsiya Komitəsinə aparılıb. Bu barədə Ermənistanın media orqanları məlumat yayıb.

Antikorrupsiya Komitəsi məlumatı təsdiqləyib, Robert Koçaryan və onun oğlu **Levon Koçaryan**ın evlərində axtarış aparıldığını bildirib.

**"Ermənistanın Antikorrupsiya Komitəsinin araşdırdığı korrupsiya xarakterli cinayət faktları üzrə cinayət işi çərçivəsində onlarla ünvanda axtarışlar və digər prosessual hərəkətlər həyata keçirilir",** – komitənin mətbuat katibi **Marina Ohancanyan** bildirib.

"Ermənistan" fraksiyasının rəhbəri **Anna Qriqoryan** AzadlıqRadiosunun erməni xidməti "Azatutyan"a bildirib ki, Robert Koçaryan Milli Təhlükəsizlik Xidmətinə aparılıb, lakin digər detallar hələlik, bilinmir. R.Koçaryanın ofisinin rəhbəri bildirib ki, bu səhər istintaq orqanları keçmiş prezidenti Korrupsiyaya Qarşı Mübarizə Komitəsinə təhvil veriblər.

Bir gün əvvəl baş nazir **Nikol Paşinyan** parlamentdə çıxış edərkən "Ermənistan" blokunun deputatı Levon Koçaryanın sualını cavablandırarkən Robert Koçaryanı məhkəməyə verəcəyini bildirmişdi.

**"Ailəniz niyə milyonçudur? Bu sərvəti haradan əldə etmisiniz? Demək istəyirsiniz ki, milyonlarınız övladlarınıza miras qalacaq... Mən sizə birbaşa deyirəm ki, bu, baş verməyəcək. Bu, şəxsi məsələ deyil, siyasi məsələdir. Bunun hər bir hissəsi Ermənistan Respublikasına qaytarılmalıdır".**

Koçaryan isə cavabında deyib ki, "nəyin kimə qaytarılacağına ölkənin birinci şəxsi yox, məhkəmə qərar verməlidir".

Ermənistanda 7 iyun parlament seçkilərində Paşinyanın "Vətəndaş Müqaviləsi" Partiyası səslərin 49.7 faiz, milyarder **Samvel Karapetyan**ın "Güclü Ermənistan" bloku 23.2 faizini, Koçaryanın "Hayastan" alyansı isə 9.9 faizini toplayıb. Digər milyarder **Qaqik Tsarukyan**ın "Çiçəklənən Ermənistan" Partiyası 3.9 faiz səs qazanaraq parlamentə düşə bilməyib. Baş nazir Paşinyan demişdi ki, "xalq üçbaşlı mafiyanı diz çökdürməyi və məhv etməyi tələb edir". İyunun 15-də Robert Koçaryanı Ermənistandan buraxmamışdılar.

İyulun 7-də isə məhkəmə müxalif "Çiçəklənən Ermənistan" partiyasının lideri, milyarder Qaqik Tsarukyan barəsində iki aylıq həbs-qətimkan tədbiri seçib. O, irimiqyaslı dələduzluq və çirkli pulların yuyulmasında ittiham olunur. Tsarukyanın tərəfdarlarına görə, hüquq-mühafizə qurumları baş nazir Paşinyanın şəxsi göstərişi ilə hərəkət edir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur